## 1. Ümumi məlumat

“Azad Vətən” Partiyası 17.08.2022-ci il tarixli təsis qurultayının qərarı ilə yaradılmışdır. Partiyanın Nizamnaməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 05.09.2022-ci il tarixdə 1106-015-2269 sayla qeydiyyata alınmışdır.

Nizamnaməsinə əsasən-Azad Vətən Partiyası “Qarabağ Azadlıq Təşkilatı”İctimai Birliyinin yenidən təşkil olunması nəticəsində yaranan, Azərbaycanda müstəqil, bütöv,demokratik, dünyəvi hüquqi dövlət və azad vətəndaş cəmiyyəti qurmaq məqsədi ilə ətrafında etnik,cinsi,irqi, dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarını ümumi siyasi ideya və məqsəd ətrafında birləşdirən,ölkənin siyasi həyatında iştirak edən qeyri-kommersiya hüquqi şəxsidir.

Mülkiyyət forması – Xüsusi.

Təşkilati hüquqi forması – Siyasi partiyadır.

“Azad Vətən” Partiyası /bundan sonra mətndə partiya adlanacaq/ vergi ödəyicisi kimi İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən 29.12.2006-cı ildə qeydiyyata alınaraq ona 2000971291 saylı VÖEN verilmişdir.

Partiyanın məqsədi Qarabağ və Zəngəzurda tam qələbənin əldə olunması, Azərbaycanın qüdrətli və güclü ölkə kimi dünya münasibətləri sistemində öz yerini tutması, təzyiq və təhdidlərdən kənar daxili və xarici siyasət yeritməsi zərurətindən ibarətdir.

Audit ilə əhatə olunan dövr ərzində işləmişlər:

Sədr: Nağı Akif Qazax oğlu – bütün dövr ərzində,

Baş mühasib: yoxdur.

Partiyanın hüquqi ünvanı: Bakı şəhəri Xətai rayonu, Gəncə prospekti,bina 37, mənzil 25.

Partiyanın faktiki ünvanı: Bakı şəhəri,Binəqədi rayonu, Azadlıq prospekti 161B

### 1.1. Əməliyyat valyutası

Partiyanın təsərrüfat və maliyyə əməliyyatları Azərbaycan manatı ilə aparılır.

Audit ilə əhatə olunan dövrdə partiya xarici valyutadan və bank kreditindən istifadə etməmişdir.

## 2. Partiyanın büdcəsinin formalaşdırılması

### 2.1. Partiya büdcəsinin gəlirləri

Gəlir – mülkiyyətçilərin kapital qoyuluşu ilə əlaqədar olmayan, lakin kapitalda artım ilə nəticələnən və hesabat dövrü ərzində aktivlərin artması, daxil olması və ya öhdəliklərin azalması şəklində iqtisadi səmərənin artmasıdır.

Partiyanın gəlirləri üzvlük haqları; ianələr; dövlət büdcəsindən daxilolmalar hesabına formalaşır.

Audit ilə əhatə olunan dövrdə partiyanın gəlirləri oimamışdır.

Partiya üzvlərindən üzvlük haqları alınmamış; ianə mədaxil olunmamışdır.

### 2.2 Partiya büdcəsinin xərcləri

Xərc – mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi ilə əlaqədar olmayan və kapitalın azalması ilə nəticələnən hesabat dövrü ərzində aktivlərin kənara axını və ya azalması və öhdəliklərin artması hesabına baş verən iqtisadi səmərənin azalmasıdır.

2023-cü il ərzində partiyanın gəlirləri olmadığı üçün,xərclərin çəkilməsi olmamışdır.

## 3. Bank və xəzinə əməliyyatları

Partiya tərəfindən bank çıxarışları,xəzinə sənədlərinin işlənilməsi aparılmamışdır.

## 4. Debitor və kreditor borcları

**Debitor borclar-** yığılması mümkün olmayan məbləğlər üzrə ehtiyatlar çıxılmaqla xalis realizə dəyərində göstərilir. Belə ehtiyatlar ya xüsusi halları, ya da vəsaitin toplanması sübutuna əsaslanan hesablamaları əks etdirir.

Partiya digər fəaliyyət növləri ilə məşğul olmadığından, üzvlük haqqı yığılmadığından debitor borcları yaranmamışdır.

## 5. Əsas vəsaitlər

**Əsas vəsaitlər-** istifadə müddəti bir ildən çox olan və dəyəri 500 manatdan çox olan Vergilər Məcəlləsinin 114-cü maddəsinə uyğun olaraq amortizasiya edilməli olan maddi aktivlərdir.

Audit ilə əhatə olunan dövr ərzində əsas vəsaitlərin hərəkəti olmamışdır.
Partiyanın balansında əsas vəsaitlər yoxdur.

## 6. Əmək haqqı

Audit ilə əhatə olunan dövr ərzində əmək haqqının hesablanması aparılmamışdır.

## 7. Mühasibat uçotu hesabatlarının vəziyyəti

Partiyada mühasibat uçotu jurnal order formasında aparılır.

Maliyyə hesabatları – istifadəçinin konkret məlumat ehtiyaclarına cavab verən hesabat tələb etmək hüququ olduqda onun bu tələbatını ödəmək məqsədi ilə tərtib edilmiş ümumi təyinatlı hesabatlardır.

Aylıq və rüblük maliyyə hesabatları vaxtında tərtib olunaraq aidiyyatı üzrə təqdim olunmuşdur.

"Azad Vətən" Partiyasının Sədri: N. Q. Akif